# Vətən müharibəsi şəhidi Əbülhəsən Balaş oğlu Eyvazov anılıb

Bakının Xətai rayonunda Vətən müharibəsi şəhidi Eyvazov Əbülhəsən Balaş oğlunun anım mərasimi keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclis Sədrinin müavini Adil Əliyev, Bakı şəhər Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, şəhid ailələri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əbülhəsən Eyvazov Vətən müharibəsində qəhrəmancasına iştirak etmiş, ölkəmizin ərazi bütövlüyü uğrunda şücaətlə döyüşərək şəhid olmuşdur. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə Əbülhəsən Eyvazov Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhid Əbülhəsən Eyvazov eyni zamanda Aprel döyüşlərinin iştirakçısı olmuş və göstərdiyi qəhrəmanlıqlara görə fəxri fərmanla təltif olunmuşdur.

Tədbirdə bütün şəhidlərimizin xatirəsi ehtiramla yad edilib, ruhlarına dualar oxunub, hər birinə Allahdan rəhmət dilənib.

Azərbaycan.- 2021.- 3 noyabr.- S.3.